# Tarix yazan günün başlanğıcı

Tarix–27 sentyabr 2020-ci il... Televiziyada səhər saatlarından etibarən cəbhədə Ermənistan tərəfindən təxribat törədilməsi nəticəsində ölən və yaralananların olduğu, bundan sonra Azərbaycan tərəfinin əks-hücum əməliyyatlarına başladığı xəbəri səslənir. Bunu eşitsək də inanmaq istəmirik. İnternetə girib nə baş verdiyini öyrənmək istəsək də bu istəyimiz baş tutmur. Məlum olur ki, ölkə ərazisində internetin verilməsi dayandırılıb...

Yuxu kimi gəlsə də, bu həqiqət idi. Artıq vaxt gəlib çatmışdı. 30 illik həsrətə son qoyulacaqdı.

30 illik işğal... 30 illik yara... Kimlərə qısa görünə bilsə də, əsrlərə bərabər... uzun bir zaman kəsiyi...

2020-ci il iyul ayının 12-si günorta saatlarından başlayaraq düşmən tərəfindən Azərbaycan Dövlət Sərhəd Xidmətinin Tovuz rayonunda yerləşən mövqeləri atəşə tutuldu. Üç gün çəkən döyüşlərdə general Polad Həşimov, polkovnik İlqar Mirzəyev olmaqla, 12 hərbçimiz şəhid oldu.

Sülh, azadlıq istəyirsənsə, hər an döyüşə hazır olmalısan sözü əbəs yerə deyilməyib. İgid oğullarımızın qəlbindəki qisas hissi, vətən sevgisi böyük qələbəmizin açarı oldu. Məhz vətən sevgisi ilə böyüyən igidlərimiz yollandı döyüşə. Biz müharibə ərəfəsində çox məqamların şahidi olduq. Xüsusilə də xalqımızın birliyini gördük. Yaşlı nənə-babalarımızın son qəpiklərini əsgərlərimizə göndərməsi, xalqın arxadan qaçaraq hərbi maşınlara ərzaq atması, əsgərlərimizə isti geyim, ərzaqların göndərilməsi, hərbi komissarlığa gedib yaşından, cinsindən asılı olmayaraq orduya yazılmaq istəyənlər və s. bu döyüşlərdə igid əsgərimiz öz cəsarəti, mərdliyi ilə, mənfur düşmən isə hər zamanki kimi dəyişməyən xisləti ilə tanındı.

Ordumuzun igid əsgəri mərdcəsinə döyüş meydanında vuruşarkən xisləti dəyişməyən düşmən hər zaman olduğu kimi dinc əhalini hədəfə aldı.

2020-ci il oktyabr ayında düşmən 4 dəfə olmaqla, Gəncə şəhərini bombardman etdi. Döyüş bölgəsinə heç bir aidiyyatı olmayan bu əraziyə atılan raketlərin nəticəsində yüzlərlə dinc əhali xəsarət aldı, şəhid oldu. 44 gün davam edən müharibədə sadəcə Gəncə deyil digər rayonlarımız da bombardman edildi. Lakin xalqımız bu dəfə öz evini, yurdunu tərk etmədi. “Ölsək də, qalsaq da çıxmayacağıq”-, deyə bütün dünyaya media vasitəsilə sözlərini çatdırdılar. Və onlar sona kimi də öz sözlərini tutdular. İgidlərimiz isə düşmənə döyüş meydanında cavab verdi. Azərbaycan əsgəri qorxmadı... Azərbaycan əsgəri zorla ayağı zəncirlənərək deyil, öz istəyi ilə, könüllü olaraq döyüşdü... Azərbaycan əsgəri silahını atıb qaçmadı... Və ən əsası Azərbaycan əsgəri öz silahdaşını yaralı, çarəsiz halda döyüş meydanında qoymadı.



Düşmən elə düşünürdü ki, Azərbaycan hər zaman olduğu kimi güzəştə gedəcək. Lakin “Dəmir yumruq” sona qədər düşmənin başını əzdi və təslim olmağa məcbur etdi. Ali baş komandan Prezident İlham Əliyevin qətiyyətli çıxışları, uğurlu siyasəti nəticəsində bütün dünya hansı ölkənin haqqlı, hansı ölkənin haqqsız olduğunu gördü.

Tarixən Qarabağ Azərbaycan torpağı olub. Bu gerçəyi heç bir təşkilat, heç bir ölkə dəyişə bilmədi.

Azərbaycan ordusu düşmənə son və gözlənilməz zərbəni Şuşa ilə vurdu. Qarabağın baş tacı Şuşamızı Azərbaycan əsgəri azad etdi. 8 noyabr 2020-ci il... səhər saatlarında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şəhidlər Xiyabanından çıxış edirdi: “Şuşa, sən azadsan!” Yuxu kimi gələn müharibə xəbərinin ardınca, bir yuxu kimi xəbər daha... Artıq Şuşada Azərbaycan əsgərinin ayaq səsləri eşidilir, Azərbaycan bayrağı dalğalanırdı.

Bu gün bizə belə qürurlu anları yaşadan şəhidlərimizə, qazilərimizə borcluyuq. Minlərlə şəhidimizin qanı bahasına minlərlə vətəndaşımız artıq “qaçqın” statusundan azad oldu. Qarabağ artıq çiçəklənir. Qarabağda onun öz vətəndaşları gəzir. Qarabağda qanı tökülən igidlərimizin ruhu dolaşır. Musiqidə də deyildiyi kimi artıq vətən bağı al-əlvandır.

Düşmənin texnikaları isə paytaxt Bakıda gələn qonaqlara və xalqımıza nümayiş etdirilir. Bizdə hər dəfə bu görüntüləri gördükcə həm kədərlənirik, həm də fəxr edirik. Düşmən bizim xalqımızı öz torpaqlarımızdan qəddarlıqla qovarkən, onlara işgəncələr verib öldürərkən, bizim ordumuz isə erməni əhalisi bizim torpaqları tərk edərkən onlara toxunmadı. Çünki dinc əhaliyə toxunmaq bir Azərbaycan əsgərinə yaraşmazdı. Dünya bir daha Azərbaycan xalqının, Azərbaycan əsgərinin necə humanist olduğunun şahidi oldu.

Bizə bu sevinci yaşadan lakin özləri şəhid olan oğullarımızın ruhları qarşısında baş əyirik. Qazilərimizə Allahdan şəfa diləyirik. Azərbaycana qələbə yaraşır. Azərbaycan xalqına azadlıq çox yaraşır. Bu müharibənin başlanmasına təkan yaradan Polad Həşimovun ruhu artıq şaddır. Polad Həşimovun əsgərləri onun qanını yerdə qoymadı.

**İlahə RƏHİMOVA,**
**“Qəbələ”**

# Vətən müharibəsində şəhid olmuş İqbal Babayevin anım günü qeyd edilmişdir

10 sentyabr Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan 44 günlük Vətən müharibəsində canından keçmiş Qəbələ oğullarından biri Babayev İqbal Zəki oğlunun doğum günüdür. Bu münasibətlə rayon icra hakimiyyətinin, rayon təhsil şöbəsinin əməkdaşları şəhidin ailə üzvləri ilə birlikdə İqbal Babayevin məzarını ziyarət etmişlər. Şəhidin məzarı üzərinə gül dəstələri qoyularaq xatirəsi anılmış, ruhuna dualar oxunmuşdur. Şəhidin ailə üzvləri dövlət tərəfindən göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.




# Qəbələ şəhərində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin KOB dostları ilə növbəti görüşü keçirilib

Qəbələ şəhərində biznesin qurulması və inkişafı ilə bağlı mikro, kiçik və orta sahibkarlara yerində dəstək və xidmətlər göstərən Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) KOB dostu ölkənin 26 şəhər və rayonunda fəaliyyət göstərən KOB dostları ilə növbəti görüş keçirib. Görüşdə KOB dostları tərəfindən sahibkarlara yüksək səviyyəli xidmətin göstərilməsi, qarşılaşdıqları çətinliklərin operativ həlli, ehtiyaclarının düzgün müəyyənləşdirilməsi və təmin olunması istiqamətində fikir mübadiləsi aparılıb. İş prosesində rast gəlinən çətinliklər müzakirə edilib, sahibkar-KOB dostu ünsiyyətinə dair fərdi və komanda tapşırıqları keçirilib. Görüş çərçivəsində, həmçinin KOB dostları üçün “Korporativ idarəetmə” mövzusunda təlim təşkil olunub. İnteraktiv təlim metodlarından və işgüzar oyunlardan istifadə olunmaqla keçirilmiş təlimdə KOB dostları korporativ idarəetmənin əhəmiyyəti, prinsipləri, bu sahədə standartlar və beynəlxalq təcrübə barədə məlumatlandırılıb. Tədbirdə xidməti fəaliyyətində fərqlənən KOB dostlarına təşəkkürnamə, təlim iştirakçılarına isə sertifikatlar təqdim edilib.

# Yaşayan bir “şəhid” ömrü

Onunla ilk görüşümdə inana bilmədim hərbçi olduğuna. Uzaqdan çox gənc və güləş sifətli görünürdü. Bir stol arxasında oturarkən uzaqdan gördüyüm adamı tanıya bilmədiyimi hiss etdim.

Üzünə baxdıqca vətən sevgisini gördüm, qorxmazlıq, cəsurluq gördüm... Vətən torpağıtək ağrılı şırımlar gördüm... simasında...

Bu gənc - övladım yaşda olan bu eloğlum Polad Həşimovun silahdaşı, ona yaxın olan insanlardan biridir... O qədər üzügülər, o qədər mülayim ifadəli idi ki siması. İlk baxışdan hərbçi olduğuna inanmaq istəmədim. Ancaq bu, görüşən zaman imiş... Bu üz ifadəsi analarla görüş zamanı imiş, yalnız analarla.

Çox həyəcanlı idi, hiss edirdim. Təbii idi, o günlərə, o anlara qayıdacaqdı... Poladlı anlara... ilk baxışdan üzündəki yara izləri diqqətimi cəlb etdi. Soruşmağa cəsarət etmədim, düşündüm ki, o boyda döyüşdən sonra sağ qalan insan necə görkəmdə olmalı idi ki...

Müsahibimlə əvvəlcə tanış oldum. 40 yaşı var idi.

**Ürək ağlayışı...**

Təbriz Kərimovla söhbət zamanı öyrəndim ki, tam 3 il birgə olmuşdur Polad Həşimovla. Onun tam xarakterini, ona xas olan xüsusiyyətləri çox gözəl bildiyini söylədi. Bəzi xatirələrdə ona aid olan insani keyfiyyətlər öz əksini tapdığı üçün təkrar etməmək istədim. Ancaq Təbrizin söhbətlərindən duydum ki, Poladla yaxın olmaq onu yaşından da böyük edib, düşüncə tərzi ilə, insanlıq keyfiyyətləri ilə, insanlığı duymaq və qiymətləndirmək baxımından. Ancaq onu da qeyd etmək lazımdır ki, ot kökü üstündə bitər misalı həmçinin Təbriz Kərimova da aiddir. İnsanlıq xüsusiyyətləri həm də gendən gəlir axı!... Polad ilə bir peşəyə qulluq edib poladlaşdı Təbriz də... Bəlkə də o əqidəyə yaxın olduğu üçün tale onları rastlaşdırmışdı...

Poladın silahdaşlarından dinləmişdim bəzi məlumatları. Ancaq Təbriz onlardan daha fərqli məlumatlandırdı məni. Bu isə onunla son anda birgə olması, onun son hərəkət və söhbətlərinin içində olması - şəhidliyi idi.



Təbriz Kərimovla görüşümüz zamanı bildirdi ki, qəhrəmanımız haqqında film çəkilir. Son hadisələr olan ərazidə çəkiliş zamanı danışa bilmədiyini, çəkilişi yenə də başa vura bilmədiklərini qəhərlə söylədi... Onunla söhbət zamanı dəfələrlə göz yaşının, qəhərin onu “boğduğunu” hiss etdim. Ürəyi ağlayırdı onun... Ürək ağlayışını görmüsüz və ya hiss etmisizmi?.. Gözündən acı yaşı qovmaq istəsə də, üzünün dərisinin, baxışlarının belə ağlamasını gördüm o gün... Əllərinin titrəməsi, üz orqanlarının səyriməsini gördüm və söhbətimin məğzini dəyişmək istədim... Onun yanında idi Polad Həşimovun hədiyyəsi... Bu, Təbriz rütbə alarkən Poladın ona bağışladığı podpolkovnik paltarı idi. Bildirdi ki, film çəkilişinə gedirəm deyə götürmüşdüm özümlə...

“İnsan var ki, ölümüylə əbədiyyən yaşayır, insan var ki, bir qarğa qədər ömür yaşasa da, bir anını belə insan kimi yaşamır. Təbrizə Allah ölüm yazmayıbmış. Yazmayıb ki, bu tarixi hadisəni olduğu kimi şərh edə bilsin. Ancaq hər dəfə o hadisələrdən danışanda, hər dəfə o hadisələri xatırlayanda həyatdan köçür və yenə həyata qayıdır - yəni ölüb-dirilir!...

Dirilmək istəmir çox vaxt... Ancaq iki körpəsi göz önünə gəldikcə, yenidən ani olaraq həyata qayıdır... Yaşayan bir “şəhid ömrü” yaşayır O! Həm bədənindəki cismani, həm qəlbindəki, yaddaşındakı mənəvi ağrılarla! Dözüm və cismani, mənəvi yük arzusu ilə!..

**Onu tanıyaq...**

Təbriz Əjdər oğlu Kərimov 1981-ci il iyun ayının 25-də Qəbələ şəhərində anadan olmuşdur. 1988-1998-ci illərdə Qəbələ şəhər 1 saylı məktəbdə orta təhsil almışdır.

1998-ci ildə Azərbaycan Ali Hərbi məktəbinə daxil olmuş və 2002-ci ildə həmin məktəbi motoatıcı ixtisası üzrə bitirmişdir. 2002-ci ilin iyul ayından 2003-cü ilin iyun ayınadək təhsilini Silahlı Qüvvələrin Təlim Tədris Mərkəzində dinləyici kimi davam etdirmişdir.

2003-cü ilin iyun ayından 2004-cü ilin iyul ayına qədər 130 nömrəli hərbi hissədə motoatıcı tağım komandiri, 2004-cü ilin iyul ayından 2005-ci ilin dekabr ayınadək 190 nömrəli hərbi hissədə motoatıcı taborun kəşfiyyat tağım komandiri, 2005-ci ilin dekabr ayından 2008-ci ilin dekabr ayınadək, 2012-ci ilin aprel ayınadək isə 057 nömrəli hərbi hissədə kəşfiyyat bölük komandiri, 2012-ci ilin aprel ayından 2014-cü ilin mart ayınadək 051 nömrəli hərbi hissədə kəşfiyyat rəisi-kəşfiyyat şöbəsi rəisinin məlumatların toplanması və təhlili üzrə köməkçisi, 2014-cü ilin mart ayından 2015-ci ilin sentyabr ayınadək 157 nömrəli hərbi hissədə kəşfiyyat bölməsinin rəisi, 2015-ci ilin sentyabr ayından, 2017ci ilin avqust ayınadək 184 nömrəli hərbi hissənin qərargah rəisi (Dağ Təlim Mərkəzinin) mərkəz rəisinin müavini, 2017-ci ilin avqust ayından 2020-ci ilin 23 sentyabrınadək 193 nömrəli hərbi hissənin kəşfiyyat rəisi-kəşfiyyat şöbəsi rəisinin kəşfiyyatın planlaşdırılması üzrə baş köməkçisi

**(Ardı 5-ci səhifədə).**